“Dövlət Mülki Aviasiya Agentliyi” publik hüquqi şəxsinin 2026-cı il 10 aprel tarixli 3-27-102/3-2-9/2026 nömrəli əmri ilə təsdiq edilmişdir.

Müntəzəm və qeyri-müntəzəm (çarter) marşrutların təsdiqi və uçuş icazələrinin verilməsi Qaydası

“Dövlət Mülki Aviasiya Agentliyi”

publik hüquqi şəxsi

Sənəd № R-ATD-001

Nəşr tarixi: 10.APR.2026

Nəşr № 01

Bakı

AZƏRBAYCAN RESPUBLİKASI
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ
PUBLİK HÜQUQİ ŞƏXS

ƏMR

“Müntəzəm və qeyri-müntəzəm (çarter) marşrutların təsdiqi və uçuş icazələrinin verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda uçuş marşrutlarını təsdiq etmək, bu marşrutların istismarına, habelə “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, fiziki və hüquqi şəxslər tərəfindən müntəzəm və qeyri-müntəzəm (çarter) uçuşların həyata keçirilməsinə icazə verilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət Mülki Aviasiya Agentliyi” publik hüquqi şəxsin Nizamnaməsi”nin 3.1.62-ci və 4.10.6-cı yarımbəndlərini rəhbər tutaraq,

əmr edirəm:

1. “Müntəzəm və qeyri-müntəzəm (çarter) marşrutların təsdiqi və uçuş icazələrinin verilməsi Qaydası” (bundan sonra – Qayda) təsdiq edilsin.
2. Bu Qayda “Dövlət Mülki Aviasiya Agentliyi” publik hüquqi şəxsinin (bundan sonra – Agentlik) rəsmi internet informasiya ehtiyatında yerləşdirilsin.
3. Agentliyin İnzibati idarəetmə departamenti Qaydanın bütün şəxsi heyətə və mülki aviasiya subyektlərinə çatdırılmasını təmin etsin.
4. Bu Qaydanın təsdiqi ilə Agentliyin 2023-cü il 31 oktyabr tarixli 3-27-102/7/3-2-65/2023 nömrəli əmri ilə təsdiq edilmiş “Müntəzəm və qeyri-müntəzəm (çarter) uçuş marşrutlarına icazələrin verilməsi Qaydası” qüvvədən düşmüş hesab edilsin.
5. Əmrin icrasına nəzarəti özümdə saxlayıram.

İdarə Heyəti sədrinin müavini,
İdarə Heyətinin sədri vəzifəsini
müvəqqəti icra edən **Bəhruz Məlikov**

Qurumun adı: Dövlət Mülki Aviasiya Agentliyi
Sənədin elektron imzalanma tarixi: 10.04.2026
Sənədin qeydiyyat nömrəsi: 3-27-102/3-2-9/2026
Imza edən şəxs: Bəhruz Məlikov Dövlət Mülki Aviasiya Agentliyinin İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən
Sənədin elektron yüklənmə ünvanı: https://docs.rabita.az/docs/e-doc?docId=8cFYDpZ4pxDNRVvh9lLtk0100/DZYKqZb/10M6V2N0M=
Qeyd: 'Elektron imza və elektron sənəd haqqında' Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir.Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

0 Sənədə nəzarət və idarəedilmə

0.1 Mündəricat

0 Sənədə nəzarət və idarəedilmə 1

0.1 Mündəricat 1

0.2 Qüvvədə olan səhifələrin siyahısı 3

0.3 Sənədin yayılma siyahısı 5

0.4 Düzəliş və dəyişikliklərin qeydiyyatı 6

0.5 Terminlər və anlayışlar 7

0.6 Qısaltmalar 9

0.7 Sənədə nəzarət və idarəedilmə 10

Müntəzəm və qeyri-müntəzəm (çarter) marşrutların təsdiqi və uçuş icazələrinin verilməsi Qaydası 1

1. Ümumi müddəalar 1

2. Uçuş marşrutlarının təsdiqi və uçuşların həyata keçirilməsinə icazə verilməsi 1

3. İcazənin müddətinin müəyyən edilməsi şərtləri 3

4. İcazə şərtlərinin yerinə yetirilməsinə dair öhdəlik 3

Əlavə 1 1

Əlavə 2 3

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.2 Qüvvədə olan səhifələrin siyahısı

	Hissə 0	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Dəyişiklik №**
1	10.04.2026	00
2	10.04.2026	00
3	10.04.2026	00
4	10.04.2026	00
5	10.04.2026	00
6	10.04.2026	00
7	10.04.2026	00
8	10.04.2026	00
9	10.04.2026	00
	Hissə 1	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Dəyişiklik №**
1	10.04.2026	00
2	10.04.2026	00
3	10.04.2026	00
4	10.04.2026	00
5	10.04.2026	00
6	10.04.2026	00
7	10.04.2026	00

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.3 Sənədin yayılma siyahısı

Nüsxə №	Nüsxənin tipi	Struktur bölmə	Yerləşmə
Master	**(S)**	Keyfiyyətə nəzarət sektoru	DMAA-nın kitabxanası/ Intranet
1	**(S)**	Keyfiyyətə nəzarət sektoru	Q-Pulse

(S) Soft Copy - (Elektron nüsxə)

(H) Hard Copy – (Çap olunmuş nüsxə)

Qeyd: Çap olunmuş və ya bu siyahıda göstərilməmiş elektron və çap olunmuş sənədin nüsxəsi "nəzarətsiz" hesab olunur.

0.4 Düzəliş və dəyişikliklərin qeydiyyatı

Nəşr/Dəyişiklik nömrəsi	Nəşr/Dəyişikliyin tarixi	Qüvvəyəminmə	Səbəb
Nəşr № 01	10.04.2026	10.04.2026	

Nəşr: Cari nüsxəyə qədər bütün əvvəlki düzəlişləri birləşdirən sənədin nəşri. Sənədin yeni nəşri göy rəngdə göstərilən düzəlişləri əks etdirmir. Sənədin cari nüsxəsi hər səhifənin aşağı başlığında göstərilir.

Düzəliş: Mətndə göy rəngdə yazılan və ya sənədin sağ tərəfində şaquli xətt ilə müşahidə olunan sənədin müəyyən hissəsinə edilmiş dəyişiklik. Düzəlişlərə dair əsas məlumatlar (nömrə və tarix) "Qüvvədə olan səhifələrin siyahısı"nda göstərilir və həm müvafiq səhifənin başlığında və mətnin özündə qeyd olunur.

0.5 Terminlər və anlayışlar

IATA mövsümü – IATA tərəfindən müəyyən olunan yay və ya qış dövrü;
IATA yay mövsümü – mart ayının son bazar günü başlayır və oktyabr ayının son bazar günündən əvvəlki şənbə günü başa çatır;
IATA qış mövsümü – oktyabr ayının son bazar günü başlayır və mart ayının son bazar günündən əvvəlki şənbə günü başa çatır.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.6 Qısaltmalar

IATA	Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası

0.7 Sənədə nəzarət və idarəedilmə

Hər hansı dəyişikliklərin edilməməsi üçün PDF faylları qorunacaq və imzalanacaq.
Bu sənədə müntəzəm olaraq yenidən baxılır və dəyişdirilir. Müvafiq işçi heyəti bütün düzəlişlərlə tanış olmalıdır.
Bu sənəd "Sənədlərə nəzarət" prosedurunun tələblərinə uyğun olaraq dəyişdiriləcək və yenidən baxılacaqdır.

Müntəzəm və qeyri-müntəzəm (çarter) marşrutların təsdiqi və uçuş icazələrinin verilməsi Qaydası

1. Ümumi müddəalar

1.1. Bu Qayda fiziki və hüquqi şəxslər (bundan sonra - ərizəçi) tərəfindən edilmiş müraciətlərə baxılması, müntəzəm və qeyri-müntəzəm (çarter) marşrutların təsdiqi və uçuş icazələrinin verilməsi, habelə bu icazəyə dəyişikliklərin və ləğvin edilməsi ilə bağlı tələbləri müəyyən edir.

1.2. Bu Qaydanın tətbiqi Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan sonra – Qanun), Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi", Azərbaycan Respublikası Prezidentinin digər fərmanları, həmçinin sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları və digər normativ hüquqi aktlara uyğun olaraq həyata keçirilir.

1.3. Bu Qaydanın tələbləri istismarçı sertifikatı ilə verilmiş icazəyə uyğun fəaliyyət göstərən yerli hava gəmisinin istismarçılarına şamil edilir.

1.4. Mülki aviasiya sahəsində fəaliyyətlə əlaqədar Qanun və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş qaydada müvafiq hüquqları təsdiq edən sənədləri almış fiziki və hüquqi şəxslər tərəfindən müntəzəm və qeyri-müntəzəm (çarter) uçuşların həyata keçirilməsinə icazə "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsi (bundan sonra – Agentlik) tərəfindən verilir.

1.5. Qaydanın tələblərinin yerinə yetirilməsinə nəzarət Agentlik tərəfindən həyata keçirilir.

2. Uçuş marşrutlarının təsdiqi və uçuşların həyata keçirilməsinə icazə verilməsi

2.1. Uçuş marşrutlarının təsdiqi və müntəzəm və qeyri-müntəzəm (çarter) uçuşların həyata keçirilməsinə icazə verilməsi üçün ərizəçi planlaşdırılan uçuş tarixindən ən azı 45 (qırx beş) gün əvvəl nümunəvi forması bu Qaydanın 1 nömrəli Əlavəsi ilə təsdiq edilmiş ərizəni aşağıdakı sənədlərlə birlikdə şəxsən və ya poçt rabitəsi vasitəsilə, yaxud elektron üsulla (hq@caa.gov.az) Agentliyə təqdim etməlidir:

2.1.1. hər hava gəmisi üzrə qeydiyyat sertifikatının surəti (hava gəmisi xarici dövlətə mənsub olduqda hava gəmisinin dövlət uçotuna alınması haqqında arayışın surəti);

2.1.2. hər hava gəmisi üzrə uçuşa yararlılıq sertifikatının surəti;

2.1.3. hər uçuş marşrutu üzrə risklərin qiymətləndirilməsinə dair sübutedici sənəd;

2.1.4. uçuş əməliyyatının münaqişə zonaları üzərində və ya onların yaxınlığında aparılması gözlənildikdə hər uçuş əməliyyatı ilə bağlı münaqişə zonalarının üzərində və ya onların yaxınlığında aparılmasına dair risklərin qiymətləndirilməsinə dair sübutedici sənəd;

2.1.5. Sığorta ilə bağlı aşağıdakı sənədlərin surəti:

2.1.5.1. hava gəmisinin əmlak qismində sığortalanmasına dair;

2.1.5.2. hava gəmisinin bortunda hava gəmisinin heyətinin həyat və sağlamlığına vurulan zərərə görə məsuliyyətə dair;

2.1.5.3. hava gəmisinin sərnişinlərinin həyatına və sağlamlığına, yaxud hava gəmisinin bortundakı əmlakına vurulan zərərə görə məsuliyyətə dair;

2.1.5.4. yükgöndərənin və ya yükalanın hava gəmisinin bortundakı əmlakına vurulan zərərə görə məsuliyyətə dair;

2.1.5.5. üçüncü şəxslərin həyat və sağlamlığına, yaxud əmlakına vurulan zərərə görə məsuliyyətə dair;

2.1.5.6. aviasiya personalının və xidmət təminatçılarının peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi ilə bağlı dəyən zərərə görə məsuliyyətə dair;

2.1.5.7. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə fərqli

qaydalar müəyyən edildiyi hallar istisna olmaqla, Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış, habelə Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinin istismar etdiyi digər dövlətə məxsus olan hava gəmisinin heyəti əmək funksiyalarının icrası zamanı bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun edilmiş sığortaya dair.

2.1.6. Qanunun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş məbləğdə xidmət haqqının ödənilməsini təsdiq edən sənədlər.

2.2. Ərizəçi qanun və digər normativ hüquqi aktlarda nəzərdə tutulan və işin həlli üçün zəruri olan sənədləri və ya məlumatları təqdim etmədiyi halda, Agentlik, "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 32.2-1-ci maddəsinin tələblərini nəzərə alaraq, əlavə sənədlərin və ya məlumatların təqdim olunmasını tələb edə bilər.

2.3. Müvafiq ərizəyə əlavə edilməli olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir. Həmin sənədlər kağız daşıyıcıda və ya elektron sənəd formasında təqdim edilə bilər.

2.4. Bu Qaydanın 2.1-ci bəndi ilə müəyyən olunmuş ərizə və sənədlər Agentlik tərəfindən qeydiyyata alındığı andan 15 (on beş) iş günü müddətində baxılması üçün Agentliyin Hava nəqliyyatı departamentinə (bundan sonra – Hava nəqliyyatı departamenti) yönləndirilir. Təqdim edilmiş məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, aidiyyəti departamentin məsul icraçısı tərəfindən bu barədə ərizəçiyə 5 (beş) iş günündən gec olmayaraq şifahi və ya elektron qaydada məlumat verilir. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı andan ən geci 3 (üç) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman icazənin verilməsi ilə bağlı ərizəyə baxılması üzrə müddətin axımı dayandırılır və dayandırılmış müddət bu Qaydanın 2.4-cü bəndində nəzərdə tutulmuş ümumi icraat müddətinə daxil edilmir. Ərizəçi təqdim etdiyi sənədlərdəki çatışmazlıqları aradan qaldırdıqdan sonra müddətin axımı bərpa olunaraq müraciətə baxılır və icazənin verilməsi və ya verilməsindən imtina barədə müvafiq qərar qəbul edilir. Ərizəçi çatışmazlıqları 3 (üç) iş günü müddətində aradan qaldırmadıqda, habelə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 3 (üç) iş günü müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

2.5. Ərizəçinin müraciəti bu Qaydanın 2.1.3-cü və 2.1.4-cü yarımbəndlərinin tələblərinə uyğun baxılması üçün Hava nəqliyyatı departamenti tərəfindən rəy üçün Uçuşların təhlükəsizliyinin idarə edilməsi sistemi (SMS) sektoruna təqdim olunur. Müvafiq müraciətə Uçuşların təhlükəsizliyinin idarə edilməsi sistemi (SMS) sektoru tərəfindən 3 (üç) iş günü müddətində baxılaraq uçuş icazəsinin verilməsinə dair müvafiq marşrutun təsdiqi və ya imtinası ilə bağlı yekun rəy Hava nəqliyyatı departamentinə təqdim olunur.

2.6. Müvafiq müraciətə dair bütün hallar müsbət olduqda Agentlik tərəfindən bu Qaydanın 2 nömrəli əlavəsində göstərilən icazənin verilməsi üçün ərizəçiyə dövlət rüsumunu ödəməsi vəzifəsi barədə şifahi və ya elektron qaydada məlumat verilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd Agentliyə ərizəçi tərəfindən təqdim edildikdən sonra icazə 2 (iki) iş günündən gec olmayaraq ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

2.7. İcazə üçüncü şəxslərə ötürülə bilməz.

2.8. İcazəni aldıqdan sonra bu icazənin məzmununda, habelə təqdim olunmuş məlumat və sənədlərdə hər hansı dəyişiklik və ya yenilik baş verdikdə ərizəçi həmin əsasların yarandığı gündən 5 (beş) iş günündən gec olmayaraq Agentliyə bu barədə ərizə ilə müraciət etməlidir. Ərizəyə dəyişiklik və ya yeniliklərin əsaslarını təsdiq edən sənədlər əlavə edilir. Ərizə daxil olduğu gündən 10 (on) iş günü müddətində Agentlik tərəfindən baxılır.

2.9. İcazə yararsız vəziyyətə düşdükdə və ya itirildikdə ərizəçi qeyd olunan icazənin dublikatının verilməsi üçün Agentliyə ərizə ilə müraciət edir. Agentlik ərizənin daxil olduğu tarixdən 3 (üç) iş günü

müddətində icazənin eyni hüquqi qüvvəyə malik dublikatını hazırlayaraq ərizəçiyə təqdim edir. İcazənin dublikatının yuxarı sağ tərəfində Azərbaycan və ingilis dillərində "Dublikat" sözü və verilmə tarixi yazılır.

2.10. İcazə aşağıdakı hallarda ləğv edilir:

2.10.1. icazənin sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;

2.10.2. icazənin müddəti bitdikdə;

2.10.3. icazənin sahibi olan hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi ləğv edildikdə;

2.10.4. icazənin sahibi olan fiziki şəxsin fərdi sahibkar kimi fəaliyyətinə xitam verildikdə;

2.10.5. məhkəmənin qanuni qüvvəyə minmiş müvafiq qərarı olduqda;

2.10.6. icazənin verilməsi üçün təqdim edilmiş sənədlərdə sonralar düzgün olmayan məlumatlar aşkar edildikdə;

2.10.7. icazənin müəyyən edilmiş şərtləri onun sahibi tərəfindən pozulduqda və ya yerinə yetirilmədikdə;

2.10.8. Agentliyin müfəttiş yoxlamalarının nəticələrindən asılı olaraq müəyyən etdiyi müddətdə aşkar olunmuş nöqsanlar aradan qaldırılmadıqda;

2.10.9. istismarçı sertifikatının müddəti bitdikdə;

2.10.10. dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.5-ci maddəsində nəzərdə tutulan müddətdə Agentliyə təqdim edilmədikdə.

2.11. İcazə Agentlik tərəfindən ləğv edildikdə, dayandırıldıqda və ya dəyişikliklərlə bağlı yenisi ilə əvəz edildikdə icazənin əsli 3 (üç) gün müddətində Agentliyə qaytarılmalıdır.

2.12. Bu Qaydanın 2.1-ci bəndində müəyyən edilmiş müddətdən sonra müraciətin təqdim edilməsi müraciətə imtina verilməsi üçün əsasdır.

3. İcazənin müddətinin müəyyən edilməsi şərtləri

3.1. İcazənin qüvvədə olma müddəti IATA mövsümünün cədvəlinə uyğun olaraq müəyyən edilir.

3.2. İcazənin qüvvədə olma müddəti Agentlik tərəfindən rəsmiləşdirilmiş icazənin verilmə tarixindən hesablanır və icazədə qeyd edilən qüvvədə olma müddətinə qədər etibarlıdır.

3.3. İcazənin nömrəsi uçuş marşrutu üzrə qeyd olunur və ardıcıl olaraq seriya nömrəsinin və onun verilmə tarixinin birləşməsi ilə formalaşır.

3.4. Agentlik verilmiş icazələrin reyestrini aparır.

4. İcazə şərtlərinin yerinə yetirilməsinə dair öhdəlik

4.1. İcazənin sahibi aşağıda göstərilənlərə dair öhdəlik daşıyır:

4.1.1. icazədə göstərilən şərtlərə və parametrlərə riayət olunmasını təmin etmək;

4.1.2. hər bir hava gəmisində müvafiq icazənin surətini daşımaq;

4.1.3. icazədə qeyd edilmiş hava marşrutu üzrə uçuşların yerinə yetirilməsinin dayandırılması barədə Agentliyə məlumat vermək.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

Əlavə 1

Müntəzəm və qeyri-müntəzəm (çarter) marşrutların təsdiqi və uçuş icazələrinin verilməsinə dair ərizənin nümunəsi

[Ərizəçinin rəsmi blankında]

"Dövlət Mülki Aviasiya Agentliyi"
publik hüquqi şəxsinə

MÜNTƏZƏM VƏ QEYRİ-MÜNTƏZƏM (ÇARTER) MARŞRUTLARIN TƏSDİQİ VƏ UÇUŞ İCAZƏLƏRİNİN VERİLMƏSİ ÜÇÜN
ƏRİZƏ

Ərizəçi barədə məlumat:

Ərizəçinin tam adı (azərbaycan və ingilis dillərində):
Elektron poçt ünvanı:
VÖEN:
Telefon:
SİTA:
Faks:
ICAO kodu:
IATA kodu:
İstismarçı sertifikatının nömrəsi və verilmə tarixi:

Bununla, bu Ərizəyə əlavə(lər)də qeyd edilən marşrutun təsdiqi və bu marşrut üzrə hava daşımalarının həyata keçirilməsi üçün _____ (gün/ay/il) tarixinədək qüvvədə olan "Uçuş icazəsi" sənədinin verilməsini Sizdən xahiş edirəm.

Qoşma: Əlavə(lər) - ____ səhifə

_____
Səlahiyyətli şəxsin S.A.A., vəzifəsi, imzası

Tarix:

MÜNTƏZƏM VƏ QEYRİ-MÜNTƏZƏM (ÇARTER) MARŞRUTLARIN TƏSDİQİ VƏ UÇUŞ İCAZƏLƏRİNİN VERİLMƏSİ ÜÇÜN

ƏRİZƏYƏ __ NÖMRƏLİ ƏLAVƏ

Marşrut barədə məlumat:

Hava daşımaları (beynəlxalq / ölkədaxili):

Daşımaların növü:

Daşımaların xarakteri (müntəzəm / qeyri-müntəzəm (çarter)):

Uçuşların tezliyi:

Uçuş zonası/marşrutu:

Naviqasiya dövrü (qış/yay):

Hava gəmilərinin növləri və qeydiyyat nömrələri:

_____

Səlahiyyətli şəxsin S.A.A., vəzifəsi, imzası, möhürü

Tarix:

Əlavə 2

MÜNTƏZƏM VƏ QEYRİ-MÜNTƏZƏM (ÇARTER) UÇUŞ İCAZƏSİNİN NÜMUNƏSİ

AZƏRBAYCAN RESPUBLİKASININ
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ

Uçuş icazəsi
AZ-[Gün.AY.İL] nömrəli

Verilir: .....
(hava gəmisinin istismarçısının adı, hüquqi ünvanı)

.....

İcazə sahibinin rekvizitləri:
Poçt ünvanı: .....
Telefon: ..... SİTA: .....
Faks: ..... Elektron ünvan: .....
VÖEN: .....

BU İCAZƏ ONUN SAHİBİNİN AŞAĞIDAKILARI YERİNƏ YETİRMƏK HÜQUQUNU TƏSDİQ EDİR:

a) *Hava daşımaları:* .....
(beynəlxalq / ölkədaxili)

b) *Daşımaların növü:* .....
(sərnişin / yük / sərnişin-yük/ digər)

c) *Daşımaların xarakteri:* .....
(müntəzəm / qeyri-müntəzəm (çarter))

ç) *Uçuşların tezliyi:* .....

d) *Uçuş zonası/marşrutu:* .....

e) *Naviqasiya dövrü:* .....
(qış / yay)

ə) *Hava gəmilərinin növləri və qeydiyyat nömrələri:* .....

İcazənin qüvvədə olma müddəti: .....

İCAZƏNİN ŞƏRTLƏRİ

1. İcazənin sahibi “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununa, “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Konvensiyaya və onun əlavələri ilə müəyyən edilmiş Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartları və tövsiyə olunan təcrübəsinə, uçuşların təşkili, təmin edilməsi, yerinə yetirilməsi və onların təhlükəsizliyi, ekoloji normalara və nəqliyyat xidməti istehlakçılarının maraqlarına riayət edilməsi üzrə rəhbər və normativ sənədlərin müddəalarına əməl etməlidir. Bu icazə başqa şəxsə verilə bilməz.

2. Bu icazə hava gəmisinin istismarçısını hər bir uçuş marşrutundan əvvəl risklərin qiymətləndirilməsi əsasında uçuşun həyata keçirilməsi öhdəliyindən azad etmir.

.....
.....
(əlavə şərtlər)

M.Y.

Səlahiyyətli şəxs (S.A.A., vəzifə, imza):

Verilmə tarixi:

REPUBLIC OF AZERBAIJAN
MINISTRY OF DIGITAL DEVELOPMENT AND TRANSPORT
STATE CIVIL AVIATION AGENCY

Flight permission
№ AZ-[Date.Month.Year]

Issued to ……..……
(air operator name, legal address)

……

Permission holder's mail address:
Postal address: .....
Phone: ……. SITA: ……..……
Fax: ……. *E-mail:* ……....
Tax ID: ……...

THIS PERMISSION GRANTS TO THE HOLDER THE RIGHT OF:

a) Air transportation: ……
(international / domestic)

b) Transportation type: ……
(passenger / cargo / cargo-passenger/other)

c) Transportation mode: ……....
(scheduled / non-scheduled (charter)

d) Flight frequency: ……
e) Flight area/route: ……
f) Flight period: ……
(winter / summer)

g) Aircraft types and registration marks: ……

Permission is valid till: .....

TERMS OF PERMISSION

1. The permit holder shall comply with the requirements of the Law of the Republic of Azerbaijan "On Aviation", the Convention on International Civil Aviation of 7 December 1944 and its Annexes, as well as the international standards and recommended practices of the International Civil Aviation Organization, and other applicable regulatory and guidance documents governing the organization, provision, conduct, and safety of flight operations, environmental protection requirements, and the safeguarding of the interests of air transport service users. This permit is non-transferable.

2. This permit shall not relieve the aircraft operator of the obligation to conduct a risk assessment prior to each flight route and to ensure that the flight is carried out on the basis of such assessment.

……
……..
(additional conditions)

S.P.

Authorised person (Name, position, signature):

Date of issue: